# Məktəblilərlə görüş

*Qəbələ şəhər 5 nömrəli tam orta məktəbində Müstəqil Azərbaycanda Dövlət Gömrük Komitəsinin yaradılmasının 25 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Qəbələ Beynəlxalq Hava Limanı Gömrük Postunun əməkdaşları və şəhər məktəblərinin şagird və müəllimləri iştirak etmişlər.*






Toplantını RİH başçısının birinci müavini Abil Ağasəfov açmışdır.

Sonra Qəbələ Beynəlxalq Hava Limanı Gömrük Postunun rəisi Xalid Məmmədov 1992-ci ilin yanvarında yaradılan Azərbaycan Dövlət Gömrük Komitəsi orqanlarının ötən 25- il ərzində keçdiyi şərəfli yoldan söhbət açmış, gömrük işçilərinin fədakar əməyindən danışmışdır.

Postun baş inspektoru Bülbül Qasımov və inspektoru Ruhiyyə Tahirova gömrük postunun cari ilin ötən dövrü ərzində fəaliyyəti barədə məlumat vermişlər.

Qeyd olunmuşdur ki, 2017-ci ilin ötən dövrü ərzində 27 sərnişin təyyarəsində gömrük nəzarəti keçirilmişdir.

Həmin dövrdə 268 nəfər gələn, 340 nəfər gedən sərnişinə gömrük xidməti göstərilmiş, bir sıra təşkilatlara, müəssisələrə və fiziki şəxslərə gömrük rəsmiləşdirilməsi təşkil edilmişdir.

Bildirilmişdir ki, gömrük əməkdaşları tərəfindən qaçaqmalçılığa, gömrük qaydaları pozuntularına qarşı nəzarət işləri gücləndirilmiş, iqtisadi təhlükəsizliyin qorunmasına diqqət daha da artırılmışdır.

Tədbirdə rayon təhsil şöbəsinin aparıcı məsləhətçisi Əhməd Mirzalıyev, şəhər 1 nömrəli tam orta məktəbin direktoru Məhəbbət Rüstəmova və şəhər 2 nömrəli tam orta məktəbin direktoru Təranə Səlimova çıxış etmişlər.

Yekunda məktəblilərin çoxsaylı sualları cavablandırılmışdır.

**"Qəbələ".**

# Qəbələ Rayon Təşkilatının konfransı

*Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Qəbələ Rayon Təşkilatının növbəti konfransı keçirilmişdir.*

*Konfransı rayon icra hakimiyyəti başçısının birinci müavini, rayon təşkilatı idarə heyətinin üzvü Abil Ağasəfov açmışdır.*





Konfransda təşkilatın sədri Fərman Hacıyev rayon komitəsinin 2012-2017ci illərdəki fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etmiş, görülən işlər barədə ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, DİİXİ Həmkarlar İttifaqının Qəbələ Rayon Təşkilatı həmkarlar ittifaqı üzvlərinin sosial iqtisadi və əmək hüquqlarının qorunmasına səy göstərmiş, hesabat dövründə yeni açılan dövlət orqanlarında həmkarlar ittifaqı təşkilatları yaratmağa nail olmuşdur.

Təftiş komissiyasının da hesabatı dinlənildikdən sonra məruzələr ətrafında müzakirələr aparılmış, DİİXİ Həmkarlar İttifaqı rayon təşkilatının 2012-2017-ci illərdəki fəaliyyəti qənaətbəxş hesab edilmişdir.

Konfransda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndəsi Vüsal Məmmədov həmkarlar ittifaqının rayon təşkilatındakı xidmətlərinə görə Fərman Hacıyevə təmsil etdiyi qurumun, Abil Ağasəfov isə Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanını təqdim etmişlər.

Konfransda təşkilati məsələlərə baxılmış, komitənin və təftiş komissiyasının yeni tərkibləri seçilmişdir.

Sabirli Pərviz Çingiz oğlu DİİXİ Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsinin sədri seçilmişdir.

**"Qəbələ".**

# Həsən Əliyev–110

Bu il görkəmli təbiətşünas alim, Azərbaycan Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, akademik Həsən Əliyevin 110 illik yubileyi ilə bağlı respublikamızda, o cümlədən Qəbələ rayonunda silsilə tədbirlər keçiriləcək. Qeyd edək ki, akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti tərəfindən 7 fevral 2017-ci il tarixdə Sərəncam imzalanıb və bu elmi ictimaiyyət tərəfindən ölkə rəhbərliyinin Azərbaycanda ekologiya elminin inkişafına sanballı töhfələr vermiş böyük alimə və ictimai xadimə verdiyi yüksək qiymətin əyani ifadəsi kimi qiymətləndirilir. Təbiət vurğunu olan alim təbiətin mühafizəsi ilə əlaqədar yorulmadan elmi işlə məşğul olub. Onun elmi yaradıcılığının bünövrəsi təbiətin mühafizəsi, torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub saxlanması və səmərəli istifadə edilməsi problemləri ilə bağlı olub.1960-cı ildə Beynəlxalq Torpaqşünaslıq Cəmiyyətinin üzvü seçilən Həsən Əliyev Azərbaycanda təbiəti mühafizə və ekologiya elminin banisi və əsas yaradıcısı kimi tanınır. Həsən Əliyevin təşəbbüsü ilə yaradılmış və 15 ildən artıq baş redaktoru olduğu «Azərbaycan təbiəti» jurnalı onun respublikamızda təbiət elminə verdiyi ən dəyərli töhfələrdən biridir. Akademik Həsən Əliyevin XX əsr Azərbaycan elminin korifeyləri ilə birgə əsasını qoyduqları elmi istiqamətlər bu gün Azərbaycan təbiətşünaslıq elminin simasını müəyyən edir. Azərbaycanda coğrafiya, kənd təsərrüfatı, aqrobiologiya, torpaqşünaslıq, ekologiya kimi elm sahələri onun rəhbərliyi ilə formalaşıb, inkişaf edib.



Görkəmli təbiətşünas alim dönə-dönə qeyd edirdi ki, meşələrin yox edilməsi su mənbələrinin zəifləməsinə, yoxa çıxmasına, çayların qurumasına, daşqınların çoxalmasına, torpaqların eroziyaya uğramasına, yarğanların əmələ gəlməsinə, ölkəmizin şimal rayonlarında bataqlıqların, cənub rayonlarında isə səhralaşmanın yaranmasına səbəb olur. Təbiətdə ekoloji balansın sabit qalması üçün bütün bitkilərin ağacların heyvan və həşəratların olması vacibdir. Ekoloji tarazlığın qorunmasında kiçik bir kol bitkisinin də öz rolu var.

Xatırladaq ki, görkəmli alim Həsən Əlirza oğlu Əliyev 7 dekabr 1907-ci ildə anadan olub. Görkəmli alimin elmi fəaliyyəti barədə gənc nəslin məlumatlandırılması məqsədilə 11 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi il ərzində regionda müxtəlif maarifləndirmə tədbirləri həyata keçirəcək, onun əvəzsiz xidmətlərinin təbliği istiqamətində lazım gələn bütün işləri görəcəkdir.

**✍ Yusif QULİYEV,**
**11 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsinin təbliğat və ətraf mühitin monitorinqi sektorunun müdiri.**

# Tədbir keçirilmişdir

Hər il 18 may günü dünyada Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd olunur. Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə MDB ölkələri arasında ilk olaraq 1993-cü ildə Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsi təsis edilib.



Mədəniyyət və Turizm Nazirliyinin "Beynəlxalq Muzeylər Günü" münasibətilə nazirliyin strukturunda olan muzeylərdə və qoruqlarda "Açıq Qapı" günü elan olunması ilə bağlı tapşırığına əsasən 18, 19, 20 may tarixlərində Heydər Əliyev Mərkəzində də "Açıq Qapı" günləri təşkil olunub. Rayonun ümumtəhsil müəssisələrinin şagirdlərin həmin günlərdə mərkəzə ekskursiyası təşkil edilib.

**Heydər Əliyev Mərkəzi.**